TƏHSİL SİYASƏTİ BƏYANNAMƏSİ

G İ R İ Ş

Hər bir ölkədə olduğu kimi Azərbaycanda da təhsil - cəmiyyəti formalaşdıran ən vacib amillərdən biridir. Hazırki dövrdə hər bir dövlətin inkişafında mühüm rolu məhz təhsil oynayır, ona görə ki, dövlət yalnız ağıllı, bacarıqlı, yüksək elmə malik olan insanlarının fəaliyyəti əsasında inkişaf edə, yüksək nailiyyətlər qazana bilər. Belə ki, yuxarıdakılar nəzərə alınaraq ölkəmizdə də bu sahəyə xüsusi önəm verilir, təhsilin inkişafı naminə böyük işlərə imza atılır.

2005-ci ildə mayın 19-da Norveçin Berqen şəhərində keçirilən konfransda Azərbaycan boloniya prosesinə qoşulmaqla bağlı rəsmi sənəd imzaladı. Bu sənəddən sonra Azərbaycan Boloniya prosesinə qoşuldu.

ISO 9001 Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) tərəfindən hazırlanmış və hazırda dünyada ən çox tətbiq edilən keyfiyyəti idarəetmə standartıdır. Azərbaycan Respublikasının Təhsil Qanununda ali məktəblərin həm təhsil, həm də mühüm elm mərkəzlər olduğu təsdiqini tapır. Həmin qanuna əsasən ATMU-nun elmi ixtisas profilinə uyğun olaraq təhsil prosesinin daim təkmilləşdirilməsini təmin etməklə bərabər dövlət sifarişlərinin, müqavilə və kontraktlar əsasında proqramların, layihələrin yerinə yetirilməsində iştirakını planlaşdırmaq və təmin təmin etmək.

I. ƏSAS MÜDDƏALAR

1. ATMU-da dövlət təhsil standartlarının hazırlanmasına, proqram və layihələrin, dərsliklərin, eləcə də təhsil sisteminin keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmiş innovasiya xarakterli tədris kurslarının yaradılmasına nail olunması;
2. Elmi və elmi-pedaqoji gənc kadrların hazırlanması, mövcüd elmi potensialın qorunub saxlanılmasının ATMU qarşısında duran əsas vəzifələrdən birinə çevirmək;
3. Elmi tədqiqatların səviyyəsinin yüksəldilməsi və tədris prosesinə tətbiqinin genişləndirilməsi, elmi-texniki nailiyyətlərin ümumiləşdirilməsi və yayılması, elmi nəticələrin istehsalatda tətbiq edilməsi, innovasiya, ixtiraçılıq və patent-lisenziya fəaliyyəti, elmi jurnalların, dissertasiyaların, elmi məqalələrin, hazırlanması və nəşri

sahəsində əhəmiyyətli işlərin görülməsi məqsədilə ATMU-da, elmi-tədqiqat müəssisəsinin yaradılmasına və normal fəaliyyətinə nail olmaq;

4. Müxtəlif müəssisələrdə və ölkələrdə çalışan alimlərlə yüksək səviyyədə əməkdaşlıq etmək və elmdə əldə edilmiş nailiyyətləri, yaxud yaranan problemləri birgə konfranslarda, seminarlarda müzakirəyə çıxarmaq, respublikada və xaricdə çıxan jurnallarda elmi məqalələr nəşr etdirmək;
5. Keyfiyyətin qiymətləndirilməsi prosedurunu ATMU-nun xaricdən qiymətləndirilməsi aparılmazdan öncə təhsil müəssisəsi tərəfindən hazırlanmış özünütəhlil hesabatı, Attestasiya Komissiyasının rəyi və Nazirliyin nəzdində fəaliyyət göstərən Akkreditasiya Komissiyasının Qərarı əsasında həyata keçirilməsi;
6. Elmi tədqiqatların səviyyəsinin yüksəldilməsi və tədris prosesinə tətbiqinin genişləndirilməsi, elmi-texniki nailiyyətlərin ümumiləşdirilməsi və yayılması, elmi nəticələrin istehsalatda tətbiq edilməsi, innovasiya, ixtiraçılıq və patent-lisenziya fəaliyyəti, elmi jurnalların, dissertasiyaların, elmi məqalələrin, hazırlanması və nəşri sahəsində əhəmiyyətli işlərin görülməsi məqsədilə ATMU-da, elmi-tədqiqat müəssisəsinin yaradılmasına və normal fəaliyyətinə nail olmaq;
7. Özünütəhlil proseduru aparılarkən aşkarlığın təmin edilməsi ATMU-nun təşkilati hüquqi təminatını, idarə olunması, mütəxəssis hazırlığının məzmunu və strukturu, tədris prosesinin təşkilinin qiymətləndirilməsi, mütəxəssis hazırlığının keyfiyyəti məsələlərini daim diqqət mərkəzində saxlamaq;

Dövlət təhsil standartlarına uyğun tədris-metodiki ədəbiyyatların, nümunəvi tədris proqramları və dərsliklərinin hazırlanması və istifadəçiyə catdırılması işinin gücləndirilməsi və bu işə maliyyə vəsaitinin ayrılması üçün müvafiq tədbirlərin görülməsinin təmin edilməsi.